**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# RUS ƏDƏBİYYATININ PROBLEMLƏRİ AZƏRBAYCAN ALİMLƏRİ SEYFULLA ƏSƏDULLAYEVİN VƏ ARİF HACIYEVİN TƏDQİQATLARINDA

İxtisas: 5718.01 – "Dünya ədəbiyyatı (rus ədəbiyyatı)"

Elm sahəsi: Filologiya elmləri

İddiaçı: **Jalə Rafiq qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, professor
**Məmməd Qoca oğlu Qocayev**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Fikrət Çingiz oğlu Rzayev**

filologiya elmləri doktoru, professor
**Rafiq Manaf oğlu Novruzov**

filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent
**Solmaz Ağazəki qızı Əliyevа**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Slavyan Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________ filologiya elmləri doktoru, professor
**Fikrət Fətiş oğlu Cahangirov**

Dissertasiya şurasının elmi katibi: ________ filologiya elmləri üzrə fəlsəfə doktoru
**Suad Arif qızı Əfəndiyeva**

Elmi seminarın sədri: ________ filologiya elmləri doktoru, professor
**Bella Sirac qızı Musayeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Rus ədəbiyyatı problemlərinin tədqiqi təkcə rus alimlərinin deyil, həm də bütün dünya filoloqlarının, o cümlədən Azərbaycanın rusist – ədəbiyyatşünaslarının qarşısında duran mühüm məsələlərdən biridir. Respublikamızda rusistlərin bütöv bir məktəbi formalaşmışdır. Onların sırasında sosialist realizm tipologiyası problemini, romantik və realist bədii yaradıcılıq növləri kimi fundamental problemləri tədqiq edən S.Q.Əsədullayev və A.A.Hacıyevi göstərmək olar. Adları çəkilən Azərbaycan alimlərinin rus ədəbiyyatı problemlərinin araşdırılmasına verdiyi töhfələri təhlil edib və öyrənmək həm rus, həm də Azərbaycan ədəbiyyatşünaslıq elmi üçün mühüm və aktual məsələdir. Azərbaycan rusiyaşünas alimlərinin əsərləri respublikanın ədəbiyyatşünaslıq elminin mühüm hissəsini təşkil edir. Bu, həm də bizim milli mədəniyyətimizin sərvətidir və uğurudur. Azərbaycan ədəbiyyatşünaslığı təkcə Azərbaycan deyil, bütün dünya ədəbiyyatının problemlərinin tədqiqində çox böyük işlər görmüşdür. Bu baxımdan S.Q.Əsədullayevin və A.A.Hacıyevin rus ədəbiyyatının müxtəlif problemlərinin tədqiqinə verdikləri elmi töhfənin tədqiqi xüsusən aktual görünür.

Dissertasiya tədqiqatının predmeti kimi seçilmiş mövzu bu vaxta qədər xüsusi elmi təhlilin obyekti olmamışdır. Qeyd olunan alimlərin işləri haqqında ayrı-ayrı resenziyalar mövcuddur, lakin onlar rusistika sahəsində əldə etdikləri elmi nailiyyətlər haqqında tam təsəvvür yaratmırlar. Azərbaycanda sosialist realizmi, romantizm və realizm haqqında kifayət qədər çox tədqiqatlar yazılmışdır. Lakin S.Q.Əsədullayev və A.A.Hacıyevin işləri çox az araşdırılıb. Məsələn, S.Q.Əsədullayevin işləri haqqında N.Jeqalovun, “Hərəkətdə estetika” (1969), L.Zalesskayanın, “Metod və ya üslub? Sovet ədəbiyyatında romantizm haqqında” (1970), V.Hacıyevin “Geniş cizgilər” (1969), T.Sultanovun “Monoqrafiyanın mühüm problemi” (1969), S.Turabovun, “Rus və sosialist realizminin tipologiyası problemləri” (1969) kimi məqalələr S.Q.Əsədullayevin işlərinə resenziyalardır və elmi tədqiqat hesab edilə bilməz. Bununla yanaşı, bu cür tədqiqatın aparılmasına ehtiyac duyulur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini iki azərbaycanlı rusiyaşünas-alim S.Q.Əsədullayev və A.A.Hacıyevin yaradıcılığı, onların çoxşaxəli elmi fəaliyyəti və ilk növbədə rus ədəbiyyatının problemlərinə həsr olunmuş işləri təşkil edir.

Tədqiqatın predmetini S.Q.Əsədullayevin tədqiqatlarında sosialist realizmi metodu və tipologiyası problemi, F.Qladkovun "Sement" romanının yaranma tarixi, A.A.Hacıyevin əsərlərində V.Q.Belinskinin "ideal poeziya" konsepsiyası, romantizm və realizmin yaradıclıq növlərinin problemləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi S.Q.Əsədullayevin və A.A.Hacıyevin rus ədəbiyyatı problemlərinə həsr edilmiş əsərlərinin təhlilidir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

1) rus ədəbiyyatı problemlərinin tədqiqində azərbaycanlı rusiyaşünas alimlərinin yerini və rolunu göstərmək;

2) S.Q.Əsədullayevin F.Qladkovun "Sement" romanına həsr olunmuş tədqiqatlarını təhlil etmək;

3) sosialist realizminin nəzəriyyə və tipologiyası, tarixilik problemlərinin tədqiqində S.Q.Əsədullayevin əsas elmi nailiyyətlərini müəyyən etmək;

4) A.A.Hacıyevin V.Q.Belinskinin "ideal poeziya" konsepsiyasına həsr edilmiş tədqiqatlarını təhlil etmək;

5) A.A.Hacıyevin bədii yaradıcılığın romantik və realistik bədii yaradıcılıq növləri haqqında işlərinin əsas elmi müddəa və nəticələrini ümumiləşdirmək.

**Tədqiqat metodları.** Əsas tədqiqat metodları qismində S.H.Əsədullayevin və A.A.Hacıyevin elmi işlərinin analitik və müqayisəli təhlil metodları seçilib.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. S.Q.Əsədullayev sosialist realizm ədəbiyyatını klassik rus ədəbiyyatının məntiqi davamı və bütün rus və dünya ədəbiyyatının inkişafının zirvəsi hesab edir. Bizim fikrimizcə, XX əsr ədəbiyyatı metod və ideya baxımından ədəbiyyatın inkişafında yeni mərhələdir, lakin onu bütün ədəbiyyatın zirvəsi adlandırmaq düzgün deyil, çünki sosialist realizmi metodu təbii, üzvi ədəbi hadisə deyil, siyasətin ədəbiyyat fəaliyyətinə müdaxiləsinin nəticəsidir.

2. Sosialist realizmi metodunun tipologiyasından danışarkən S.Q.Əsədullayev sosialist realizm ədəbiyyatını sovet ədəbiyyatında əsas və yeganə metod hesab edir, romantizmi, tənqidi realizmi, satiranı, elmi fantastikanı isə alim müstəqil metodlar deyil, sosialist realizminin vahid metodu daxilində yaradıcı üslub kimi qiymətləndirir. Biz onları sosialist realizminin tərkib hissəsi deyil, sosialist realizm ədəbiyyatı ilə yanaşı mövcud olan müstəqil metod və cərəyanlar hesab edirik.

3. A.A.Hacıyevin tədqiqatlarında romantizm və realizm tarixi-ədəbi prosesin müəyyən mərhələlərində yaranan ədəbi metod kimi deyil, ən qədim dövrdən başlayaraq bütün dünya ədəbiyyatında mövcud olan bədii yaradıcılıq növləri kimi müəyyən edilir. Antik dövr, Orta Əsrlər dövrü və müasir müəlliflərin əsərlərinin yaradıcılığın bir tipində birləşdirilməsi mübahisəli görünür, çünki bu metodların hər birinin arxasında müəyyən tarixi şərtlər və dünyagörüşləri durur.

4. A.A.Hacıyev romantik yaradıcılıq tipinə həyatın mənəvi tərəfini əks etdirən əsərləri, realist yaradıcılığa isə həyatın sosial-məişət aspektini təsvir edən bədii əsərləri aid edir. Lakin məlumdur ki, realistlərin əsərlərində insanın mənəvi aləminin təsviri mühüm yer tutur, romantik əsərlərdə isə həmçinin sosial həyatın obrazlarını tapmaq mümkündür.

5. A.A.Hacıyev romantik və realist yaradıcılıq növlərini üç aspektdə nəzərdən keçirir: mövzu, bədii-ideya və nitq janrları. Belə çıxır ki, əsərin romantizmə və ya realizmə mənsub olmasını bir yox, üç əlamət üzrə müəyyən etmək olar: təsvirin predmeti üzrə, ideya üzrə və forma üzrə, yəni janr üzrə. Alimin bu fikrini səmərəli və elmi cəhətdən düzgün hesab etmək olar.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada Azərbaycan alimləri S.Q.Əsədullayev və A.A.Hacıyevin rus ədəbiyyatı problemlərinə həsr olunmuş elmi-tədqiqat işləri təhlilə ilk dəfə cəlb edilir, F.Qladkovun “Sement” romanının yaranma tarixi, V.Q.Belinskinin “ideal poeziya” konsepsiyası, sosialist realizminin nəzəriyyəsi və tipologiyası, romantik və realist yaradıcılıq növləri kimi problemlərin tədqiqinə alimlərin verdiyi töhfələr müəyyən olunur.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti Azərbaycan alimlərinin apardığı tədqiqatların rus ədəbiyyatının mühüm problemləri haqqında bilikləri zənginləşdirməsindən ibarətdir. Bu tədqiqatlar haqqında bilik olmadan sosialist realizmi, həmçinin romantizm və realizm məsələləri haqqında məlumat natamam olardı.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, bu dissertasiya tədqiqatının nəticələri filologiya fakültələrində ədəbiyyat nəzəriyyəsi kursunun tədrisində, rus ədəbiyyatı üzrə dərslik və dərs vəsaitlərinin tərtib edilməsində, filologiya elmləri üzrə magistr və fəlsəfə doktoru elmi dərəcələrinin alınması üçün dissertasiya işlərinin yazılmasında istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas nəticələri Bakı Slavyan Universitetində keçirilən nəzəri seminarlarda, ali məktəblərarası, respublika və beynəlxalq konfranslarda məruzə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Slavyan Universitetinin Rus ədəbiyyatı tarixi kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 5 səhifə (8096 işarə), I fəsil – 61 səhifə (108454 işarə), II fəsil – 48 səhifə (85592 işarə), nəticə – 8 səhifə (12676 işarə). Dissertasiyanın ümumi həcmi 137 səhifə (214818 işarədir).

## İŞİN ƏSAS MƏZMUNU

**“Giriş”** hissəsində dissertasiyanın aktuallığı əsaslandırılır, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti müəyyən edilir, mövzunun işlənmə dərəcəsi, müdafiəyə çıxarılan müddəalar təqdim olunur, işin strukturu və həcmi, elmi müddəaların aprobasiyası göstərlilir.

Dissertasiyanın birinci fəsli **“S.Q.Əsədullayevin tədqiqatlarında XX əsr rus ədəbiyyatının problemləri”** adlanır. İki paraqrafdan ibarət olan bu fəsildə F.Qladkov yaradıcılığının

tədqiqat məsələləri və S.Q.Əsədullayevin elmi əsərlərində sosialist realizminin tarixi və nəzəriyyəsi problemləri öyrənilir.

Birinci fəslin birinci paraqrafı ***“Seyfulla Əsədullayevin tədqiqatlarında F.Qladkovun yaradıcılığı və XX əsrin 20-ci illərində rus ədəbiyyatı”*** adlanır. Məlum olduğu kimi, S.Əsədullayevin elmi araşdırmalarının əsas obyekti F.Qladkovun yaradıcılığı, sosialist realizminin nəzəriyyəsi və tipologiyası olub. Tədqiqatda bizim vəzifəmiz alimin F.Qladkovun yaradıcılığı, xüsusilə onun “Sement” romanı ilə bağlı elmi araşdırmaları təhlil etməkdən ibarətdir. S.Q.Əsədullayevin “Fyodor Qladkov. “Odlu at”dan “Troyan at”a tərəf” monoqrafiyası həmin məsələlərə həsr olunmuşdur. F.Qladkovun yaradıcılıq yolunu izləyərək S.Əsədullayev yazıçının əsas əsərinin yaranma tarixini göstərir və onun ilk dəfə inqilab mövzusu qoyulan “Odlu at” və “Yığın” («Ватага») əsərlərini təhlil edir.

S.Əsədullayev F.Qladkovun “Tufan yıxdığı ağaclar” («Бурелом») əsərini təhlil edərək hesab edir ki, burada inqilabçıların obrazları uğursuz təsvir olunmuşdur. O, müəlliflə razılaşmır və hesab edir ki, ailə və inqilab məsələsi əsərdə düzgün qoyulmayıb. M.Qorkinin “Ana” romanından irəli gələn inqilabi mübarizə ilə ailə xoşbəxtliyinin uyğunsuzluğu ideyası kökündən yanlışdır, çünki biri digərini istisna etmir. Bu mövzu “Sement” romanında da – Qleb Çumalovun və Daşanın həyat və fəaliyyətində özünü büruzə verir. S.Q.Əsədullayev yazır ki, “*Ümumiyyətlə, “Tufan yıxdığı ağaclar ” əsərində aşkar “maneralı”, “sınmış” nəsrin izləri var*”[1]. Müəllif “Odlu at” əsəri ilə bağlı həmin fikri söyləyir: “Əsər ideoloji tərtibatda yalnışdır və bədii keyfiyyətləri baxımından zəifdir”, çünki Kuban kazakları inqilabın məqsəd və vəzifələrini düzgün başa düşməmişdilər[2]. Müəllif bu romanı müstəqil əsər hesab etsə də, alim bir məsələdə yenə də haqlıdır: “Odlu at” “Sement” romanının yazılmasına bir növ hazırlıqdır. Belə çıxır ki, F.Qladkovun yaradıcılığında əsas əsər “Sement” romanıdır, yazıçının digər əsərləri isə ancaq həmin romana münasibətdə əlamətdardır.

---

[1] Асадуллаев, С.Г. В русле социалистического реализма / С.Г.Асадуллаев. – Баку: Язычы, – 1979. – с. 23.

[2] Yenə orada, – s. 24.

S.Əsədullayevin tədqiqatlarında “Sement” romanının 20-ci illərin birinci yarısında ölkədə ümumi ədəbi yaradıcılıqla əlaqələndirilməsi mühüm yer tutur. XX əsrdə alimlər sovet ədəbiyyatının həmin dövrü haqqında böyük şübhə ilə yazır, həmin dövrü “yazıçı üçün səviyyəsiz bir dövr” kimi səciyyələndirirdilər. Lakin roman bəzi müasirləri tərəfindən bəyənilmiş, hətta heyranlıqla qarşılanmışdı. F.Qladkov özü də romanının mahiyyətini reallığın həqiqi əksi ilə məhdudlaşmayaraq, burada hadisələrə öz müəllif münasibətini ifadə etməkdə, həyatın inkişafının əsas meyllərini göstərməkdə görürdü, çünki həyat statik bir şey deyil, daim inkişaf edən fenomendir.

Əgər yazıçının yuxarıda sadalanan əsərlərini “Sement” romanının yazılmasına hazırlıq adlandırmaq olarsa, mövzu baxımından onlar romandan təbii ki fərqlənir. F.Qladkov 20-ci illərdə yazdığı hekayələrdə yenidən öz romanının mövzusuna müraciət edir ki, bu da öz növbəsində 20-ci illərdə qələmə aldığı və sonralar romana ayrı-ayrı fəsillər kimi daxil olan hekayələrdir: “Tövbəkarların görüşü”, “Əmək”, “Dağıdılmış tor”, “Sönmüş ocaq”, “Komsomolçular”. A.P.Volojenin yazır ki “*Qladkovun “Sement”dən əvvəl yazdığı bütün əsərlər tamamilə müstəqildir, eyni zamanda bir-birilə bağlıdır, bir zəncirin halqalarıdır*”[3].

Dağıdılmış sement zavodunun bərpasında iştirak edən keçmiş ağqvardiyaçıların Türkiyədən vətənlərinə qayıtmasını təsvir edən “Tövbəkarların görüşü” hekayəsini roman üzərində işin başlanğıcı hesab etmək olar. Bu hekayədə artıq romanın əsas obrazlarının konturları görünür. Burada F.Qladkov müharibə mövzusunu tamamlayır, əmək və yeni sistemin yaradılması mövzusuna keçir. Qleb Çumalov (sonradan romanın baş qəhrəmanı) gələn kazaklara üz tutur və inqilabın keçmiş düşmənlərinin zavodun bərpasının zəruriliyi ilə razılaşdığından danışır.

Bu hekayənin ardınca inqilabın qatı düşməni olan mühəndis Kleystin mənəvi və ideoloji dirçəlişindən bəhs edən yeni, psixoloji “Dağıdılmış tor” hekayəsi yarandı. Deyilən hekayələrin hər ikisi 1923-cü ildə müvafiq olaraq “Krasnaya Niva” və “Molodaya

---

[3] Воложенин, А.П. Фёдор Гладков. Жизнь и творчество / А.П. Воложенин. – Москва: Просвещение, – 1969. – с. 63-64

Qvardiya" qəzetlərində çap olundu. Kleyst obrazını F.Qladkov Çumalovun əksi kimi yaradıb. "Nəsrdə şeir"ə bənzəyən, kollektiv əməyin tərənnüm edildiyi "Əmək" hekayəsi əvvəlki hekayələrin mövzularını davam etdirən üçüncü hekayə oldu. Burada Daşa Çumalova, Savçuk və romanın başqa qəhrəmanlarının obrazları da görünür. S.Əsədullayev "Əmək" hekayəsini romanın əsası və gələcək mərkəzi fəsli hesab edir ki, bu da böyük roman ideyasının formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Sözü gedən üç hekayədən sonra "Sönmüş ocaq" adlı dördüncü hekayə yazılır ki, burada artıq yeni problem qaldırılır və yeni obraz – inqilabla oyanan, ailədə və cəmiyyətdə öz missiyasını yenidən dərk edən müasir qadın obrazı yaranır. Həmin hekayənin baş qəhrəmanı romanda mühüm yer tutan Daşa obrazıdır. Beşinci hekayə 1927-ci ildə "Romandan bir parça" yarımsərlövhə ilə nəşr olunan "Komsomolçular" hekayəsidir. S.Q.Əsədullayev 1927 ili "Sement" romanının bitirildiyi il hesab edir. S.Q.Əsədullayevin yazdığı kimi romanın digər fəsilləri haqqında məlumat yoxdur, onlar çox güman ki 1924-cü ildə yazılmışdır.1926-cı ildə roman ayrıca nəşr kimi işıq üzü gördü və əvvəllər jurnal versiyasından çıxarılan fəsillər həmin nəşrdə bərpa edildi.

1940-cı ildə F.Qladkov romanın daha əsaslı şəkildə "yenidən qurulmasını" həyata keçirir. S.Q.Əsədullayev öz əsərində F.Qladkovun romanın mətni üzərində 1940-cı ildə nəşr olunana qədər işini diqqətlə izləyir. Adətən F.Qladkovun romanının tədqiqatçıları əsərin üç nəşrindən bəhs edirlər: 1925-ci il jurnal variant və 1934 və 1940-cı illərin nəşrləri. S.Əsədullayev həmçinin romanın bir çox aralıq variantlarını, redaktələrini və dəyişikliklərini aşkar edir.

F.Qladkov əsərin dilində edilən dəyişikliklərlə (vulqarizmlərdən, yüksək pafosla ifadə edilmiş sözlərdən, dialektizmlərdən imtina və s.) yanaşı, əsas qəhrəmanların və digər personajların obrazlarının təsvirində onları psixoloji cəhətdən dərinləşdirərək xeyli əhəmiyyətli dəyişikliklər etmişdir. S.Əsədullayevin yazdığı kimi, "*1940-cı ildə "romanın mətni yenidən yazıldı, bu, onun ideya- obraz sisteminə dərindən təsir etdi, kitabın ideya məzmununa və obrazlarının dərinliyinə müsbət təsir göstərdi*"[4].

[4] Асадуллаев, С.Г. В русле социалистического реализма / С.Г. Асадуллаев. – Баку: Язычы, – 1979. – с. 87

S.Əsədullayev tədqiqatlarında F.Qladkovun romanının dilinin təhlili ilə məhdudlaşmır, o, yazıçının yeni insan obrazının yaradılması istiqamətində gördüyü işlər üzərində ətraflı dayanır. Alim qeyd edir ki, kommunistlərin ilk obrazları sxematik olub: dəri gödəkçə, enli çiyinlər, hündür boy, güclü əzələlər kommunistin xarakterik və formal xüsusiyyətləri idi ki, bu da obrazı sxematik və cansız edirdi. Alim romanın müxtəlif variant və nəşrlərini, müəllifin roman mətnində etdiyi dəyişiklikləri müqayisə edir. Alimin təhlili həddən artıq dolğun və təfərrüatlıdır ki, bu da nəzəri cəhətdən zəruri deyildi, çünki bu cür təhlil hansısa nəzəri ümumiləşdirmə xatirinə deyil, "təhlil xatirinə təhlil"ə çevrilməyə başlayır.

Birinci fəslin ikinci paraqrafı ***"S.Q.Əsədullayevin əsərlərində sosialist realizminin nəzəriyyəsi və tarixi problemlərinin tədqiqi"*** adlanır.

XX əsrin əvvəllərində rus ədəbi tənqidi yeni cərəyanları sosialist realizmi metodunun inkişafının ilkin mərhələsi hesab etməyə başladı. S.Q.Əsədullayev "Sosialist realizminin tarixiliyi, nəzəriyyəsi və tipologiyası" (1969) əsərində də sosialist realizmi metodunun tarixini, metod və dünyagörüşü məsələlərini, ədəbi xarakter problemlərini, yaradıcılıq üslublarının tipologiyasını və s. nəzərdən keçirir.

Sosialist realizmi sənəti həqiqətən də nikbin idi, lakin bu nikbinlik sosialist realizminin mahiyyətindən və bu yönümlü yazıçı və şairlərin təsvir etdiyi reallıqdan irəli gəlmirdi, partiya və hökumətin fərmanları şəklində yuxarıdan diktə olunurdu, yəni bu xəyali, zahiri nikbinlik idi. Odur ki, biz öz elmi işimizdə S.Əsədullayevin sosialist realizmi ilə bağlı elmi tədqiqatlarının ideya və məzmununu təqdim etməklə yanaşı, onların ziddiyyətlərini və nöqsanlarını müasir metodologiya mövqeyindən üzə çıxarmağa çalışacağıq.

S.Əsədullayev sovet ədəbiyyatında sosialist realizmi metodunun formalaşma tarixini XX əsrin 20-ci illəri ilə əlaqələndirir, XX əsrin "sosialist realizminin təbiiliyini, üzviliyini və tarixiliyini" qeyd edir. Bu müddəa həmçinin mübahisəlidir, çünki o zaman ədəbi yaradıcılıq partiyanın və hökumətin müdaxiləsi olmadan fəaliyyət göstərə bilməzdi. Buna görə də sosialist realizminin meydana gəlməsinin və inkişafının "təbii, üzvi" olması böyük şübhələr yaradır, çünki heç bir ədəbi metodu "dekret" vasitəsi ilə təsdiq etmək mümkün deyil. S.Q.

Əsədullayev sosialist realizmi metodunun tarixinin öyrənilməsinin iki yolunu qeyd edir: a) "*tarixi-ədəbi təhlil yolu", b) "ədəbiyyatda sosialist realizminin 20-ci illərin tənqidi vasitəsilə dolayı şəkildə öyrənilməsi yolu...*"[5] Alim əsasən ikinci yola üstünlük verir. Bu baxımdan sovet ədəbiyyatı metodunun adının müəyyənləşdirilməsi tarixi həmçinin maraqlıdır. Belə ki, sovet ədəbiyyatının əsas metodu üçün ən müxtəlif adlar təklif edilidi: "monumental realizm", "sosial realizm", "proletar realizmi", "tendensiya realizmi" və s.

XX əsrin 20-ci illərində sovet ədəbiyyatında yeni metod uğrunda mübarizə ilə yanaşı yeni cərəyanlar uğrunda mübarizə və tənqidçilərin "ölü" metod elan etdiyi realizmə qarşı mübarizə gedirdi (D.Ştenberq, A.Punin, M.Qrabar və s.). Bu vəziyyətdə realizm tərəfdarları olan tənqidçilər realizmi "təzələməyə", onu yeni dövrün tələblərinə uyğunlaşdırmağa çalışırdılar. Bu məqsədlə realizmin yeni adları düşünülmüşdü: "neorealizm" (V.Bryusov), "tendensiya realizmi" (V.Mayakovski), "monumental realizm" (A.Tolstoy), "sosial realizm" (A.Lunaçarski), və s.

S.Q.Əsədullayev və sosialist realizmi metodunun digər nəzəriyyəçiləri sosialist realizmini sovet ədəbiyyatının əsas və yeganə metodu elan etməklə vəziyyətdən çıxır və yeni metodun bütün digər xüsusiyyətlərini sosialist realizmi daxilində "üslub cərəyanları" adlandırırdılar. Azərbaycan aliminin tədqiqatının əsas üstünlüyü də məhz bununla bağlıdır. S.Əsədullayev yeni metodun müxtəlif təriflərindən söhbət açaraq yazırdı: "*Yuxarıda verdiyimiz bütün bu termin və təriflər o demək deyil ki, köhnə, tənqidi realizm, (modernizmin müxtəlif "dəbli" cərəyanlarını nəzərə almamaqla), artıq yeni ədəbiyyatın ruhunu və xarakterini aydın ifadə etmir və buna görə də yazıçıları, sənətçiləri və tənqidçiləri qane etmirdi*"[6].

S.Əsədullayev qeyd edir ki, sosialist gerçəkliyi haqqında yazan alimlərin əsərlərində "bədii metod" anlayışının özü "estetik kateqoriya kimi"[7] mövcud deyildi. Yəni, sosialist realizmi adlı yeni metod hələ

---

[5] Асадуллаев, С.Г. В русле социалистического реализма / С.Г. Асадуллаев. – Баку: Язычы, – 1979. – с. 89

[6] Yenə orada, – с. 24

[7] Асадуллаев, С.Г. Историзм, теория и типология социалистического реализма / С.Г. Асадуллаев. – Баку: Азгосиздат, – 1969. – с. 27

yaradıcılıq metodu kimi özünü təsdiq etməmişdi və klassik ədəbiyyatdan fərqlənən yalnız yeni ədəbiyyatla bağlı idi. RAPPçılar tərəfindən tətbiq edilən “bədii metod” termininin meydana çıxmasını alim dövrün nəzəri fikrinin böyük nailiyyəti hesab edir. Onun mülahizələrində iki məqam diqqəti cəlb edir: 1) sosialist realizmi nəzəriyyəsini sosialist ideologiyası ilə əlaqələndirmək cəhdi, 2) bu nəzəriyyəni canlı tarixi-ədəbi prosesin qanunauyğunluqlarından çıxarmaq və onun klassik ənənə ilə bağlılığını göstərmək cəhdi.

Sosialist realizmi metodunun üslub cərəyanlarına gəlincə, alimin fikri belədir: “Sosialist realizmi digər yaradıcılıq üsulları ilə müqayisədə müxtəlif bədii üslubların və yaradıcılıq üslublarının təzahürü üçün daha geniş imkanlar açır”[8]. Sosialist realizmin bir çox tənqidçilər və nəzəriyyəçilər tərəfindən sırf ideoloji kateqoriya kimi qiymətləndirilməsi onunla izah olunur ki, onlar bu metodu siyasi ideologiyadan daha çox ədəbi kateqoriya hesab edirdilər. Alim əsas səylərini klassik realizmlə müqayisədə sosialist realizmini realizmin “yeni növü” kimi nəzərdən keçirilməsinə yönəldir. Bu da doğru və elmi yol hesab edilməlidir. S.Q.Əsədullayev eyni zamanda sosialist realizmi metodu daxilində beş üslub cərəyanını müəyyən edir: realistik, romantik, satirik, fantastik, lirik. Alim onları “*sosialist realizminin mövcud olan növləri və ya formaları” adlandırır, onların hər biri “planetlər sistemində olduğu kimi, universal “günəş” ətrafında öz estetik orbiti – cazibə qüvvəsi qanununa görə sosialist realizmi metodu ilə hərəkət edir*”[9]. Alimin bu məntiqi və əsaslandırılmış ümumiləşdirməsi bütün ədəbi üsullara münasibətdə elmi maraq doğurur.

S.Q.Əsədullayev öz tədqiqatında metod və dünyagörüşü məsələsinə də toxunur. Bu problemin əsas çətinliyi ondan ibarətdir ki, ədəbiyyat bir tərəfdən yazıçının dünyagörüşü ilə sıx bağlıdır, digər tərəfdən müəllifin dünyagörüşünə zidd olaraq realizm qanunları həmçinin yazıçının dünyagörüşünə zidd olan məqamları göstərə bilir. Alimin qənaəti belədir: “*Müzakirələr zamanı 1930-cu illərin tənqidi metod və dünyagörüşü arasında dialektik əlaqə, sonuncunun birbaşa*

---

[8] Асадуллаев, С.Г. Историзм, теория и типология социалистического реализма / С.Г. Асадуллаев. – Баку: Азгосиздат, – 1969. – с.170
[9] Yenə orada, – с. 199

*yazıçının bədii praktikasında həssas-obrazlı formada üzvi təzahürü konsepsiyasını inkişaf etdirdi. Burada siyasi fəal fikir dünyagörüşünə, dünyagörüşü isə dünyaya münasibətə çevrilir. Bədii əsərin əsas cərəyanını metod və ya dünyagörüşü tərəfindən müəyyən edib-etməməsi məsələsi hələ də tam həllini tapmamışdır"*[10].

Alim "inqilabi romantikanı" sosialist realizminin yenilikçi xüsusiyyəti hesab edir. Alimlərin romantika haqqında fikirləri belə bir faktdan qaynaqlanır ki, romantika sosialist realizminin üzvi tərkib hissəsidir, və romantizm olmadan realizm ümumiyyətlə mövcud ola bilməz. Sosialist realizmi ədəbiyyatında "təsdiq pafosu" məsələsi alimlər tərəfindən belə həll edilmişdi: sosialist realizmi ədəbiyyatı tənqidə və satiraya yol verir, lakin onları cəmiyyətin əsasları ilə deyil, ayrı-ayrı, fərdi çatışmamazlıqlar sahəsi ilə məhdudlaşdırırdı; buna görə də, təsdiq pafosu sosializmin əsaslarının toxunulmazlığını sübut etmək məqsədi güdür, lakin bu, fərdin normalardan kənara çıxmasını da istisna etmir.

"Sosialist realizmi ədəbiyyatında müsbət və mənfi prinsiplərin nisbətinə" gəlincə, bütün mənfi cəhətlər sosializmin nəhayət qırıldığı keçmişlə əlaqələndirilir və müsbət olan hər şey yeni sistemin gələcəyinə aid edilir. Belə bir tezisdə ictimai-siyasi və ədəbi-estetik meyllərin birləşərək vahid bir cərəyana necə çevrildiyini görmək çətin deyil. Buna uyğun olaraq alim "xarakter və şərait dialektikasından", yəni bu kateqoriyaların qarşılıqlı asılılığından danışır. Alim yazır ki, *"yeni insanın, sovet ədəbiyyatı qəhrəmanının... xarakteri, daim dəyişir, özünün yaratdığı həyat şəraiti ilə bərabər inkişaf edir"*[11].

Daha sonra alim metod və üslub, bədii metodun çoxluğu, sosialist realizmi metodunun tarixi və nəzəriyyəsi kimi məsələləri işıqlandırır, inqilabi dövrün psixoloji nəsri probleminə, yeni insanın xarakterinin öyrənilməsində M.Qorkinin və A.Tolstoyun fəaliyyəti məsələlərinə toxunur. Nəticədə, S.Əsədullayev belə qənaətə gəlir ki, sosialist realizmi metodu öz daxilində müxtəlif üslub axınlarına və cərəyanlara imkan yaradan çoxşaxəli realizmdir.

---

[10] Асадуллаев, С.Г. Историзм, теория и типология социалистического реализма / С.Г. Асадуллаев. – Баку: Азгосиздат, – 1969. – с. 77.
[11] Yenə orada, – c. 110

*Birinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[12]

İkinci fəsil **"A.A.Hacıyevin yaradıcılığında romantizm və realizm probleminin tədqiqi"** adlanır və həmçinin iki paraqrafdan ibarətdir.

İkinci fəslin birinci paraqrafı ***"A.A.Hacıyevin tədqiqatlarında V.Q.Belinskinin "ideal poeziya" konsepsiyası"*** adlanır. Bildiyimiz kimi, alim ilk elmi tədqiqatını V.Q.Belinskinin yaradıcılığına həsr etmiş və tədqiqat predmeti kimi "*ideal poeziya*"[13] anlayışını seçmişdir. Qarşıya qoyulan problemin öyrənilmə vəziyyətinin qısa icmalından belə nəticəyə gəlmək olar ki, V.Q.Belinskinin "ideal poeziya" məfhumu müasir həyatın, incəsənətin və elmin ehtiyacları baxımından bu gün bizə dünya ədəbiyyatında qeyri-real xəttin estetik mahiyyətinin özəlliyini daha dərindən dərk etməyə imkan verir[14].

Ədəbiyyatşünasların "ideal poeziya" anlayışı ilə bağlı fikirlərini təhlil edən A.A.Hacıyev XX əsrin 10-cu illərin "liberal-burjua ədəbi tənqidi" nümayəndələrinin, 20-ci illərin "formal

---

[12] Мамедова, Ж.Р. Проблемы русской литературы в исследованиях азербайджанских ученых // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2017. № 3. – s. 139-145; С.Г.Асадуллаев об истории возникновения и утверждения метода социалистического реализма // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, – 2019. № 2. – s. 308-311; Роман Ф. Гладкова «Цемент» в исследованиях С.Г.Асадуллаева // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. № 1. – s. 222-226; История создания романа Ф.Гладкова «Цемент» в исследованиях С.Г.Асадуллаева // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (dil və ədəbiyyat seriyası), – 2019. № 1. – s. 295-301; Основные стилевые течения социалистического реализма по С.Асадуллаеву // „Turkiy xalqlar adabiyoti tadqiqida innovatsion yondashuvlar" mavzusidagi xalqaro ilmiy-amaliy konferensiya materiallari to'plami. – Nukus: O'zbekiston, – 7 oktabr, – 2025, Vol. 1, No. 2, – s. 306-313; Русская литература 1920-х годов и творчество Ф.Гладкова в исследовании С.Асадуллаева // "Turkiy xalqlar folklorining qiyosiy tadqiqi: lokal xususiyatlar va ilmiy nazariy Yondashuvlar". mavzusidagi xalqaro ilmiy-amaliy anjuman to'plami. – Toshkent: O'zbekiston, – 2-4 aprel, – 2026, Vol. 3, – s.184-190; Seyfulla Əsədullayevin sosialist realizmi konsepsiyası // Gənc tədqiqatçıların IX respublika elmi konfransı, – Bakı: Azərbaycan Universiteti, – 11 mart, – 2026, – s.244-246.

[13] Гаджиев, А.А. Концепция «идеальной поэзии» в эстетике В.Г. Белинского: / автореферат кандидатской диссертации. / – Казань, – 1963. – с.4-5.

[14] Yenə orada, – c.6

məktəb" nümayəndələrinin, 30-50-ci illərinin "sovet belinskişünas alimlərinin" fikirlərinə istinad edir. Alimin fikrincə, birincilər problemə öz idealist mövqeyindən, ikincilər sosial-tarixi nöqteyi-nəzərdən yanaşırlar, digərləri isə əsas vurğunu "əsl poeziya" anlayışına yönəldir və V.Q.Belinskinin "ideal poeziya" haqqında təliminə məhəl qoymurlar.

A.A.Hacıyev görkəmli tənqidçini ümumən bədii ədəbiyyat nəzəriyyəsinin, yəni həm real, həm də ideal poeziyanın banisi hesab edir. Alimin fikrincə V.Q.Belinskinin qeyri-real yaradıcılıqla bağlı fikirləri problemin üç əsas aspektini – "*ideal poeziyanın həyat mənbəyi, onun ideya məzmunu və bədii forması*", yəni qaynaqlarını, məzmununu və formanı ehtiva edir.

A.A.Hacıyev V.Q.Belinskini sənət problemlərinə yanaşmada materialist hesab edir, onun nəzəriyyəsini insanın yaratdığı hər sənət əsərini gözəl, reallıqda isə gözəlliyi təsadüfi və estetik baxımdan qüsurlu bir hal hesab edən idealistlərin baxışlarına qarşı mübarizədə təhlil edir. Eyni zamanda, alim sənətdə gözəlliyi norma kimi qəbul edən F.Şellinqin və sənətin məqsədini gözəlliyin təfəkkür vasitəsi ilə estetik həzzi çatdırmaqda görən G.Hegelin fikirlərinə istinad edir.

A.Hacıyevin tədqiqatlarında V.Q.Belinskinin "ideal poeziya" janrları haqqında fikirlərinə də yer verilir. V.Q.Belinski "real poeziya" janrlarını məişət mənzərələrinin təsvir olunduğu komediya, roman və hekayə janrlarına, qəhrəmanın həyatının yüksək poetik məqamlarını, əxlaqi hadisələri təsvir edən faciə və poemanı isə mənəvi zəngin şəxsiyyətlərin obrazlarını əks etdirən "ideal poeziya" janrlarına aid etmişdi. V.Q.Belinskinin mövqeyinə əsaslanaraq, alim əsl poeziyanın idealdan üstün olmasını demir. O, hər iki reallığı əsaslı hesab edir, çünki müəlliflər öz yaradıcılıqları üçün materialı reallıqdan götürürlər. Bu fikir tamamilə düzdür.

A.Hacıyevin üzərində ətraflı dayandığı digər mühüm problem V.Q.Belinskinin "ideal poeziya"nın formaları məsələsinə baxışıdır. Alim bu problemə marksist-leninist metodologiyası mövqeyindən yanaşır və qeyd edir ki, V.Q.Belinski "*mədəniyyətin və ədəbiyyatın inkişafının əsasının son nəticədə maddi istehsal üsulu olması*"[15]

[15] Гаджиев, А.А. Концепция «идеальной поэзии» в эстетике В.Г. Белинского: / автореферат кандидатской диссертации. / – Казань, 1963. – с. 13.

həqiqətindən xəbərsiz idi. Alim burada tənqidçinin dünyagörüşünün məhdud olmasını aydın görür və onunla razılaşmır, çünki ədəbiyyat və incəsənətin öz inkişaf qanunauyğunluqları var və deyilən sahə heç bir halda sosial-iqtisadi amillərdən asılı deyil. Alim V.Q.Belinskinin cəmiyyətin inqilabi yolla dəyişməsi ideyasına sadiq olmasını qeyd edərək, onun dünyagörüşünü tarixi və tarixi-ədəbi prosesin marksist mövqeyindən anlanmasına yaxınlaşdırmağa çalışır.

Alim tənqid təliminin güclü tərəfini sənətin və ədəbiyyatın, sənətin estetik mahiyyətinin ictimai kökləri ilə birləşdirən “ideal” və “real” poeziyanın məzmununu dərk etməsində görür. Buna görə də V.Q.Belinski sənət tarixini “üslublar”, “meyillər” və s. tarixi kimi deyil, “insan və cəmiyyətin” tarixi kimi başa düşürdü.

V.Q.Belinskinin konsepsiyasına əsaslanaraq alim incəsənətin inkişafında aşağıdakı tarixi mərhələləri qeyd edir: Şərq, antik, Orta Əsrlər, ən yeni dövr. Burada alim incəsənətin inkişaf mərhələlərinin əsas ictimai-iqtisadi formasiyalarla bağlılığını görür.

“İdeal poeziya”nın inkişafına gəlincə, alim qeyd edir ki, antik ideal poeziya “epik – ideallıq, Şərq – panteist ideallıq, Orta Əsrlər – mənəviyyat ideallığı, ən yeni – lirik ideallıq ilə səciyyələnirdi. Üstəlik, epizm, panteizm, spiritizm, lirizm burada dövrün dünyagörüşü kimi qəbul edilməlidir...”[16].

A.Hacıyev V.Q.Belinski haqqında tədqiqatlarında sovet ədəbiyyatında romantizm, yaradıcılığın romantik tipi məsələsinin tədqiqində V.Q.Belinski irsinin əhəmiyyəti, sovet ədəbiyyatında ideal prinsipinin rolu kimi problemlərə də toxunur. V.Q.Belinskinin nəzəriyyəsi ilə hərtərəfli və dərin tanışlıq bütün dünya ədəbiyyatında ***qeyri-real*** yaradıcılığın mövcudluğunun düzgünlüyünü və ***aktual*** reallığını dərk etməyə imkan verir. Alim ***qeyri-real*** sənətə ən düzgün və elmi tərif verən, “ideal poeziyanın” dərin elmi nəzəriyyəsini yaradan, onun dünya ədəbiyyatında inkişaf tarixini izləyən V.Q.Belinskinin rolunu yüksək qiymətləndirir.

[16] Гаджиев, А.А. Концепция «идеальной поэзии» в эстетике В.Г. Белинского: / автореферат кандидатской диссертации. / – Казань, 1963. – с. 14.

Şərq poeziyasına gəlincə, alimin qeyd etdiyi kimi, V.Q.Belinskinin "tarixi və ədəbi materialla bilavasitə tanışlığı"[17] olmayıb. Bu səbəbdən, görkəmli tənqidçidə Şərq xalqları poeziyasının guya fəaliyyətdən, mənəviyyatdan, sənətkarlıqdan məhrum olması kimi fikirlər yaranır. A.A.Hacıyev tənqidçinin Şərq poeziyası ilə bağlı yanlış mühakimələrinə düzəliş verməyi özünə borc bilir. Alim "Xəmsə"nin yaradıcısı Nizaminin poeziyasını, Şirin, Fərhad, Leyli, Məcnun, Bəhram, İsgəndər kimi qəhrəmanların obrazlarını misal gətirir. O, "*insanın özünü təbiətin bütün qüvvələri və hadisələrinin mərkəzi elan edən romantik üsyankar*"[18] nümunəsi kimi Nəsimi poeziyasını da qeyd edir.

İkinci fəslin ikinci paraqrafı ***"A.A.Hacıyevin tədqiqatlarında romantizm və realizm problemləri yaradıcılıq növləri kimi"*** adlanır. Yuxarıda qeyd etdiyimiz kimi, A.A.Hacıyevin tədqiqatlarında romantizmin realizmlə əvəzlənməsi deyil, onların müxtəlif ədəbiyyatlarda, dövrdən, eləcə də bu əsərlərin müəlliflərindən asılı olaraq müxtəlif nisbətlərdə birgə mövcudluğu öyrənilir.

A.A.Hacıyev antik ədəbiyyatdan başlayan və XIX əsr ədəbiyyatı ilə bitən ədəbiyyatı bütövlüklə romantik və realist yaradıcılıq növlərinə ayırır. Birinci növə alim insanın mənəvi həyatını, mənəvi dünyasını əks etdirən əsərləri, ikinci növə isə insanın ictimai həyatını əks etdirən əsərləri aid edir. G.Hegel həmçinin ədəbiyyatı oxşar şəkildə, yəni iki -simvolik və romantik növə bölür. Eyni zamanda alim bu mövzuda Aristoteldən tutmuş sovet alimlərinə qədər elmi ədəbiyyata geniş şərh verir.

A.A.Hacıyevin tədqiqatının adında irəli sürülən "romantizm" və "realizm" terminləri müəyyən dövrlə və müəyyən yazıçıların yaradıcılığı ilə bağlı olan yaradıcılıq metodları deyil, yaradıcılıq növləridir, tipləridir və alimin fikrincə, bütün dövrlərin ədəbiyyatı üçün səciyyəvidir. Romantik və realist yaradıcılıq növləri, alimin qeyd etdiyi kimi, üç formasiya ədəbiyyatına aiddir: quldarlıq, feodalizm, kapitalizm.

---

[17] Гаджиев, А.А. Концепция «идеальной поэзии» в эстетике В.Г. Белинского: / автореферат кандидатской диссертации. / – Казань, – 1963. – с. 15.
[18] Yenə orada.

Maraqlıdır ki, A.A.Hacıyev öz arqument və sübutlarını mövcud nəzəri və tarixi-ədəbi araşdırmaların təhlili üzərində deyil, tarixi-ədəbi prosesin özünün bədii materialı və konkret müəlliflərin yaradıcılığı üzərində qurur. Yaradıcılığın iki növünün mahiyyətinə gəlincə, tədqiqatçı yaradıcılığın romantik və realist növlərini üç aspektdə nəzərdən keçirir: mövzu-tematik, obrazlı-ideoloji, janr-nitq. A.A.Hacıyev yazır: "*Yaradıcılıq növü müvafiq romantik və ya realistik əsərlərin mövzu-tematik əsası, obrazlı-ideoloji məzmunu, janr-nitq forması kimi komponentlərin ayrılmaz vəhdətidir*"[19]. Bundan əlavə, alim göstərilən səviyyələrin hər birini ayrıca nəzərdən keçirir: romantik sənət mövzusu, romantik sənət məzmunu, romantik sənət forması.

Bədii təsvirin konkret predmeti kimi mənəvi və sosial prinsiplərin dialektik vəhdətini vurğulayan alim, sanki, romantik və realist yaradıcılıq növləri haqqında nəzəriyyəsini əsaslandırmaq üçün zəmin yaradır. A.A.Hacıyev romantik yaradıcılıq növünə Sofoklun, V.Şekspirin, V.Hüqonun, G.Q.Bayronun və başqa ədiblərin əsərlərini aid edir. Antik dövr müəlliflərinin yaradıcılığını həyatın mənəvi tərəfinin obrazı kimi qiymətləndirmək mübahisəli görünür, çünki antik sənətdə əsas yeri insan obrazı mənəvi və ya sosial hadisə kimi deyil, fiziki şəxs obrazı kimi tutur. Alimin fikrincə, romantik olan müəllif reallıqdan üz döndərib öz ideya və ideallarının "buludları" arasında dolaşan şəxs deyil, bu şəxs öz ülvi mahiyyətini, gözəl obrazlarını gündəlik reallıqdan çıxarır. Romantikanın ideya və idealları şairin fantaziyası deyil, real həyatın özünün, real insanın xüsusiyyəti və məzmunudur. Bu o deməkdir ki, həm romantik, həm də realist obyektlər real həyatın özündə onun fərqli cəhətləri kimi yer alır. A.A.Hacıyevin fikrincə, romantik yaradıcılıq növü bütün dövrlər üçün səciyyəvidir. Deməli, romantizm (realizm kimi) mədəni-tarixi hadisə deyil, bütün dövrlərin və bütün xalqların ədəbiyyatına xas olan sırf estetik bir hadisədir.

Alim romantik məzmuna, ilk növbədə, "mənəvi həyatın öz formalarında mənəvi həyatın yenidən yaradılmasını və təsvir etməsini nəzərdə tutan" "bədii obrazlılığı" aid edir. Romantik əsərin

[19] Гаджиев, А.А. Романтизм и реализм. Теория литературно-художественных типов творчества / А.А. Гаджиев. – Баку: Элм, – 1972. – с. 23.

məzmunu məlum və “təkrarən, yenidən yaranan” obyektdir, romantik obraz isə sosial reallığı mənəvi reallıq şəklində ifadə etmək üçün vasitədir. Başqa sözlə desək, romantik obraz reallığın ruhlandılılması və mənəviyyat sahəsinə köçürülməsidir. Tədqiqatçı romantik məzmunun tərifini aşağıdakı kimi verir: “*romantik obrazlı (obyektiv) məzmun şəxsiyyətin və son nəticədə cəmiyyətin tarixi inkişafının bu mərhələsində mənəvi həyatının “təkrarən yaranması” (formaların saxlanmasını) və yenidən yaradılmasını (mahiyyətinin ümumiləşdirilməsini) nəzərdə tutur*”[20].

Romantik məzmun iki komponentdən ibarətdir: a) insanın və cəmiyyətin mənəvi həyatının obrazlı əksi, b) təsvir edilənə subyektiv, müəllif münasibəti. Bu komponentlərin biri olmadığı halda, romantik sənət əsəri haqqında danışmaq çətindir. Yəni, romantik yaradıcılıq növü üçün, daha dəqiq desək, romantizm üçün bir tərəfdən romantik mövzu, digər tərəfdən də “qələm ustasının romantik estetik münasibəti”[21] lazımdır.

Alim daha sonra öz tədqiqatlarında əsərin nitq quruluşu, ədəbiyyatda burjua formasiyası dövrü, bədii məzmun formaları kimi “obraz” və “ifadə” və s. kimi problemləri təhlil edir. A.A.Hacıyev romantik sənət növündən söhbət açarkən, ilk növbədə, janrı nəzərdə tutur və şeiri romantik obraz üçün ən adekvat sənət növü hesab edir. Bununla yanaşı, alim realist şeirlərin də olduğunu qeyd edir. Buna baxmayaraq, o, şeir janrını romantik yaradıcılıq növünə aid edir. Eyni sözü yaradıcılıq növündən asılı olaraq romantik və ya realist olan əsərin dili və üslubu haqqında da demək mümkündür. Alim hesab edir ki, romantik qəhrəman əsərin əsas ideyasının daşıyıcısı kimi çıxış edir, onun “personajlar” adlandırdığı ikinci dərəcəli qəhrəmanlar isə “yardımçı” funksiyanı yerinə yetirir və əsas obrazın xarakterini açıqlamağa xidmət edir, bu da romantik formanın səciyyəvi cəhətidir. Öz fikrini alim Bayronun “Manfred” poemasının təhlili ilə təsdiq edir.

---

[20] Гаджиев, А.А. Романтизм и реализм как типы литературно-художественного творчества: / автореферат докторской диссертации. / – Баку, 1970. – с. 17.

[21] Гаджиев, А.А. Романтизм и реализм. Теория литературно-художественных типов творчества / А.А. Гаджиев. – Баку: Элм, – 1972. – с. 66.

A.A.Hacıyevin tədqiqatının digər mühüm mövzusu realist yaradıcılıq növüdür. Bu yaradıcılıq növü də onun tərəfindən üç səviyyədə – bədii mövzu, məzmun və forma səviyyəsində nəzərdən keçirilir. A.A.Hacıyev gerçəkliyinin, ilk növbədə, sosial şəraitin insan tərəfindən dərk edilməsini və "təkrar istehsalı"nı realist yaradıcılıq növünün əsas əlaməti hesab edir. A.A.Hacıyev realizmin bədii predmetini reallığın bütövlükdə deyil, yenidən yaradıla və "təkrar yarana" bilən, yəni rəssamın qələmi altında real faktdan real həyatın obrazlı ifadəsinə çevrilə bilən fakt hesab edir. Alim realist sənət obyektini bəzən başqa cür, yəni "sosial münasibətlər"[22] adlandırır.Alim realist yaradıcılıq tipini antik ədəbiyyatda və ilk növbədə Ellinizm və Roma antik dövrləri ədəbiyyatında tapır, Aristofanın komediyalarını realist əsərlər hesab edir. A.A.Hacıyev belə nəticəyə gəlir ki, antik ədəbiyyatda, xüsusən də antik komediyalarda real sosial obrazlar mövcuddur, ona görə də bu, realist yaradıcılıq növüdür. Alim Orta Əsrlər ədəbiyyatında olan realist yaradıcılıq növündən də bəhs edir.

Realizmin inkişafında alim üç ən mühüm tarixi mərhələni – İntibah, Maarifçilik dövrünü və XIX əsri qeyd edir. Göründüyü kimi, alim ədəbiyyat tarixinin dövrləşdirilməsini cəmiyyət tarixinin dövrləşdirilməsi əsasında qurur. A.A.Hacıyevin tədqiqatlarında daim ön planda cəmiyyətin tarixi, ədəbiyyat tarixi isə həmin tarixin nəticəsi kimi ikinci planda yer alır.

Realist yaradıcılıq növünün bədii məzmununu, predmetini və formasını ayrıca təhlil edən alim belə nəticəyə gəlir ki, realist yaradıcılıq növünün əsasını, başqa sözlə, onun predmetini ictimai münasibətlər təşkil edir. Aydındır ki, alim realizmdə sosial münasibətlərin rolunu mübaliqə edir və realistik təsvirdə onların olmasını məcburi hesab edir. Bizim fikrimizcə, hər şeyi ictimai münasibətlərlə bağlamaq düzgün deyil. Məsələn, L.Tolstoyun "Anna Karenina"romanında Vronski ilə Anna Karenina arasındakı münasibətlərin təsvirində həyatın hansı sosial tərəfləri öz əksini tapır? Alimin gəldiyi son nəticə ondan ibarətdir ki, realist yaradıcılıq

[22] Гаджиев, А.А. Романтизм и реализм. Теория литературно-художественных типов творчества / А.А. Гаджиев. – Баку: Элм, – 1972. – с. 141.

tipində subyekt-tematik material, obrazlı-ideoloji məzmun və janr nitq forması vəhdət təşkil edir.

A.A.Hacıyevin elmi əsərlərində araşdırdığı daha bir problem romantik və realist yaradıcılıq növlərinin vəhdəti problemidir. Alim onların arasına sədd qoymur, onların sintezindən bəhs edir, qeyd edir ki, deyilən yaradıcılıq növləri bir-birindən fərqlənsə də, öz bədii xüsusiyyətlərinə malikdir, lakin eyni zamanda onları əks fenomen hesab etmək olmaz. Deməli, alim romantik əsərdə bədii əsərin mövzu-tematik mənşəyində, obrazlı-obyektiv məzmununda və obrazlı-ideoloji sahəsində, yəni bədii yaradıcılığın hər üç aspektində realist elementlər tapır. Realistik əsərdə romantik elementlərin olduğu halda isə bu elementlər realistik şəkildə təsvir edilir. Alim eyni əsərdə romantik və realist elementlər tapır, məsələn, N.V.Qoqolun "Ölü canlar", "Nevski prospekti", A.S.Puşkinin "Bürünc atlı", Servantesin "Don Kixot" və s. Beləliklə, A.Hacıyev ən qədim dövrdən başlayaraq XX əsr ədəbiyyatına qədər bütün dünya ədəbiyyatını ikicəhətli – romantik və eyni zamanda realist adlandırır.

Belə ki, alim sənətdə romantik və realistik elementlərin bir-birinə nüfuz etməsinin müxtəlif formalarını açıqlayır, onların müxtəlif münasibətlərini üzə çıxarır və prinsiplərdən birinin üstünlük təşkil etməsindən asılı olaraq əsəri romantik və ya realist əsər adlandırır.

A.A.Hacıyev həmin elementlərin arasında tarazlıq hallarını "ikiplanlı əsər" adlandırır, yəni ədəbiyyat bir sənət növü kimi ikili mahiyyətə malikdir.

*İkinci fəsildən əldə olunan müddəalar müəllifin qeyd olunan nəşrlərində öz əksini tapıb.*[23]

---

[23] Мамедова, Ж.Р. Исследование проблемы романтизма и реализма в трудах А.А.Гаджиева // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (dil və ədəbiyyat seriyası), – 2019. № 2. – s. 321-327; Проблемы романтизма и реализма как типы художественного творчества в исследованиях А.А.Гаджиева // – Москва, Международный аспирантский вестник. Государственный Институт русского языка им. А.С.Пушкина, – 2021. № 2. – с. 62-66; В.Г.Белинский в исследованиях А.А.Гаджиева // – Bakı: AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2021. № 3. – s. 310-317; Концепция «идеальной поэзии» В.Г.Белинского в исследованиях А.А.Гаджиева // Humanitar və ictimai elmlərin əsasları" mövzusunda III Respublika elmi konfransı. – Bakı: – 30 aprel, –

Sonda tədqiqatda əldə edilən **nəticələr** ümumiləşdirilir və müxtəsər **yekun** verilir. Tədqiqat ilk növbədə göstərir ki, S.Q.Əsədullayev yazıçı F.Qladkovun "Sement" romanı üzərində işini ətraflı araşdırır, müəllifin ayrı-ayrı epizodlara, baş qəhrəmanların səciyyələndirilməsində etdiyi dəyişiklik və təkmilləşdirmələrdən bəhs edir.

S.Q.Əsədullayev ikinci və əsas tədqiqatını sovet ədəbiyyatının əsas metodu kimi sosial realizm probleminə həsr etmişdir.Alim hesab edir ki, sosrealizm klassik rus ədəbiyyatının məntiqi və üzvi davamı və zirvəsidir. S.Q.Əsədullayev sosial realizm metodu çərçivəsində beş üslub cərəyanı müəyyən edir: realistik, romantik, satirik, fantastik və lirik üslub cərəyanları. O, hər bir üslub cərəyanını ətraflı təhlil edir və onların əsas yaradıcılıq prinsipini müəyyənləşdirir, cərəyanların hər birinin funksiya və məqsədlərini müəyyən edir.

Deməli, sosrealizm metodu alimlər tərəfindən müxtəlif üslub cərəyanlarını özündə birləşdirən çoxşaxəli realizm kimi təqdim olunur.

S.Q.Əsədullayevin tədqiqatlarında sosialist realizmi problemlərindən başqa, ümumilikdə yaradıcılıq metodu, metod və dünyagörüşü, ədəbi xarakter, yaradıcılıq üslublarının tipologiyası və s. çox dərin elmi-nəzəri əhəmiyyətə malikdir. Ümumiyyətlə, alim metod problemini yazıçının dünyagörüşü ilə əlaqələndirir və buna əsaslanaraq əsas sosialist realizmi metodunun Qərbin müxtəlif modernist cərəyanlarından üstünlüklərindən bəhs edir.

Həmin dövr sovet ədəbiyyatında tənqidi realizm və ya romantizmin olub-olmaması məsələsini alim özünəməxsus şəkildə həll edir və sübut edir ki, o zaman əsas metod sosialist realism olub, tənqidi realizm və romantizm isə müstəqil metodlar deyil, sosialist realizminin daxilində üslubi yaradıcılıq metodlarıdır. Bu o deməkdir

---

2021. – s.42-44; Эволюция романтического и реалистического типов в исследованиях азербайджанского ученого Арифа Гаджиева // – Наука и инновации – современные концепции. Москва. Международный научный форум, – Москва: – 07 мая, – 2021. – с. 114-118; Проблемы романтизма и реализма как типы творчества в исследованиях А.А.Гаджиева // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" XII Beynəlxalq elmi-praktik konfrans. – Bakı: Bakı Slavyan Universiteti, – 30 aprel, – 2021. – s. 208-211.

ki, socialist realizmi klassik realizmin tərkib hissəsi olan yeni metod deyil, əksinə, realizm sosrealizm metoduna onun üslub istiqamətlərindən biri kimi daxil edilmişdir.

Digər azərbaycanlı alim – A.A.Hacıyev həmçinin rus ədəbiyyatı problemlərinin tədqiqinə mühüm töhfə vermişdir. Alim V.Q.Belinskinin estetikasında "ideal poeziya" anlayışı kimi problemləri, romantik və realist yaradıcılıq növlərini araşdırmışdır. "İdeal poeziya"dan danışan V.Q.Belinski, alimin fikrincə, sosial şəraitin deyil, müəyyən bir dövrə xas olan mənəvi həyatın bədii təsvirini nəzərdə tuturdu.

A.A.Hacıyevin tədqiqatlarında təhlil edilən digər mühüm problem ədəbi-bədii yaradıcılıq növləri problemidir. Alim ədəbiyyat tarixini bəzi metodların başqaları ilə əvəzlənməsi kimi deyil, həm eyni ədəbiyyat daxilində, həm də bir müəllifin yaradıcılığında romantik və realist yaradıcılıq növlərinin növbələşməsi və birgə mövcudluğu kimi təqdim edirdi. O, N.V.Qoqolun "Ölü canlar", "Nevski prospekti", A.S.Puşkinin "Yevgeni Onegin", "Tunc atlı", Bayronun "Don Juan" və başqa əsərlərdə romantizm və realizmin sintezini tapır.

A.A.Hacıyev antik dövrdən bu günə qədər bütün ədəbiyyatı romantik və realist yaradıcılıq növlərinə ayırır və birinci növə mənəvi həyatın təsvir olunduğu əsərləri, ikinci növə isə ictimai həyatı əks etdirən əsərləri aid edir. Müəllif bu tipləri üç aspektdə nəzərdən keçirir: mövzu-tematik, ideya-obraz və janr-nitq.

Alim ədəbiyyat tarixini ədəbi cərəyanların və məktəblərin mübarizəsi və dəyişməsi kimi deyil, müxtəlif yaradıcılıq növlərinin sinxron, birgə mövcudluğu kimi qiymətləndirir. Yaradıcılıq növü mövzu-tematik əsas, obrazlı-ideoloji məzmun və janr nitq formasının dialektik vəhdətidir.

Alim öz tədqiqatlarında Azərbaycan ədəbiyyatında romantizm və realizm problemindən də bəhs edir. A.A.HAcıyevin fikrincə Azərbaycan ədəbiyyatında realizm XIX əsrdə M.F.Axundovun yaradıcılığında meydana gəlib və alim haqlı olaraq həmin dövrü klassik romantizmdən realizmə keçid adlandırır. Klassik romantizm dedikdə alim ilk növbədə M.Füzulinin və Şərq İntibahının

nümayəndələri olan digər şairlərinin poeziya ənənələrini nəzərdə tuturdu.

Beləliklə, qoyulan problemin tədqiqi göstərdi ki, Azərbaycan alimləri S.Q.Əsədullayev və A.A.Hacıyev sosialist realizminin tarixi və tipologiyası, eləcə də ədəbi-bədii **yaradıcılıq növləri** kimi romantizm və realizm kimi rus ədəbiyyatının fundamental nəzəri problemlərinin tədqiqi və öyrənilməsinə mühüm töhfələr vermişdir.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı əsərlərində əks olunmuşdur:**

1. Проблемы русской литературы в исследованиях азербайджанских ученых // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2018. № 3, – s.139-145.
2. С.Г.Асадуллаев об истории возникновения и утверждения метода социалистического реализма // – Bakı: Bakı Dövlət Universiteti, Dil və ədəbiyyat, – 2019. № 2, – s.308-311.
3. Роман Ф.Гладкова «Цемент» в исследованиях С.Г.Асадуллаева // – Bakı: Bakı Slavyan Universiteti, Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2019. № 1, – s. 222-226.
4. История создания романа Ф.Гладкова «Цемент» в исследованиях С.Г.Асадуллаева // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (dil və ədəbiyyat seriyası), – 2019. № 1, – s.295-301.
5. Исследование проблемы романтизма и реализма в трудах А.А.Гаджиева // – Bakı: Bakı Slavyan Universiteti, Elmi əsərlər (dil və ədəbiyyat seriyası), – 2019. № 2, – s.321-327.
6. Проблемы романтизма и реализма как типы художественного творчества в исследованиях А.А.Гаджиева // – Москва, Международный аспирантский вестник. Государственный Институт русского языка им. А.С.Пушкина, – 2021. № 2, – с. 62-66.
7. В.Г.Белинский в исследованиях А.А.Гаджиева // – Bakı: AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutu, Filologiya məsələləri, – 2021. № 3, – s.310-317.

8. Концепция «идеальной поэзии» В.Г.Белинского в исследованиях А.А.Гаджиева // Humanitar və ictimai elmlərin əsasları" mövzusunda III Respublika elmi konfransı. – Bakı: – 30 aprel, – 2021, – s.42-44.
9. Эволюция романтического и реалистического типов в исследованиях азербайджанского ученого Арифа Гаджиева // – Наука и инновации – современные концепции. Международный научный форум, – Москва: – 07 мая, – 2021, – с. 114-118.
10. Проблемы романтизма и реализма как типы творчества в исследованиях А.А.Гаджиева // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemləri" XII Beynəlxalq elmi-praktik konfrans. – Bakı: Bakı Slavyan Universiteti, – 30 aprel, – 2021, – s.208-211.
11. Основные стилевые течения социалистического реализма по С.Асадуллаеву // „Turkiy xalqlar adabiyoti tadqiqida innovatsion yondashuvlar" mavzusidagi xalqaro ilmiy-amaliy konferensiya materiallari to'plami. – Nukus: O'zbekiston, – 7 oktabr, – 2025, Vol. 1, No. 2, – s.306-313.
12. Русская литература 1920-х годов и творчество Ф.Гладкова в исследовании С.Асадуллаева // "Turkiy xalqlar folklorining qiyosiy tadqiqi: lokal xususiyatlar va ilmiy nazariy Yondashuvlar". mavzusidagi xalqaro ilmiy-amaliy anjuman to'plami. – Toshkent: O'zbekiston, – 2-4 aprel, – 2026, Vol. 3, – s.184-190.
13. Seyfulla Əsədullayevin sosialist realizmi konsepsiyası // Gənc tədqiqatçıların IX respublika elmi konfransı, – Bakı: Azərbaycan Universiteti, – 11 mart, – 2026, – s.244-246.

Dissertasiyanın müdafiəsi 29 iyun 2026-cı il tarixində saat 16.00 Bakı Slavyn Universiteti nəzdində fəaliyyət göstərən FD 2.13 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı, AZ 1014, S.Rüstəm 33. Bakı Slavyan Universiteti.

Dissertasiya ilə Bakı Slavyan Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Bakı Slavyan Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 may 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 08.05.2026

Kağızın formatı: A5

Həcm: 36837 işarə

Tiraj: 30 nüsxə